| | |
|---|---|
| “Təsdiq edilmişdir” | “Təsdiq edilmişdir” |
| Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi<br>Əmr № 020<br>“07” fevral 2001-ci il | Azərbaycan Respublikası Milli Bankı İdarə Heyətinin 2001-ci il “29” yanvar tarixli qərarı ilə protokol № 4<br>“29” yanvar 2001-ci il |
| Sədr | İdarə heyətinin Sədri |
| _____________ H. Babayev | _______________E. Rüstəmov |

(29 sentyabr 2006-cı il tarixli 0182 №-li Əmrin redaksiyasında)

**Dövlət qiymətli kağızları ilə Azərbaycan Respublikası Milli Bankının REPO/əks-REPO əməliyyatlarının aparılması haqqında Qaydalar**

Bu Qaydalar Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, “Azərbaycan Respublikasının Milli Bankı haqqında” və “Banklar haqqında” Azərbaycan Respublikası Qanunlarına uyğun olaraq hazırlanmış və Azərbaycan Respublikası Milli Bankı (irəlidə - “Milli Bank”) tərəfindən dövlət qiymətli kağızları ilə (irəlidə “qiymətli kağızlar”) REPO/əks-REPO əməliyyatlarının aparılması qaydalarını müəyyən edir.

## I. İstifadə olunan terminlər.

1.1. *“REPO əməliyyatı”* – Milli Bank tərəfindən qiymətli kağızların müvəkkil banka satışı (REPO-nun açılması) və eyni zamanda müvəkkil bank tərəfindən həmin qiymətli kağızları Milli Banka satmaq, Milli Bankın isə onları müvəkkil bankdan geri satın almaq öhdəliyini (REPO-nun bağlanması) rəsmiləşdirən maliyyə əməliyyatıdır.

1.2. *“Əks-REPO əməliyyatı”* – müvəkkil bank tərəfindən qiymətli kağızların Milli Banka satışı (REPO-nun açılması) və eyni zamanda Milli Bank tərəfindən həmin qiymətli kağızları müvəkkil banka satmaq, müvəkkil bankın isə onları Milli Bankdan geri satın almaq öhdəliyini (REPO-nun bağlanması) rəsmiləşdirən maliyyə əməliyyatıdır.

1.3. *“Müvəkkil bank”* – Milli Bank ilə REPO baş Sazişini bağlayan bankdır.

1.4. *“REPO Baş Sazişi”* - REPO/əks-REPO əməliyyatları aparılan zaman Milli Bank və müvəkkil bank arasındakı qarşılıqlı münasibətləri tənzimləyən və REPO/əks-REPO əməliyyatlarının aparılmasının əsas şərtlərini, tərəflərin hüquq, vəzifə və məsuliyyətini müəyyənləşdirən sazişdir.

1.5. “*REPO şəhadətnaməsi*” –Milli Bankla müvəkkil bank arasında hər bir ayrıca REPO/əks-REPO əməliyyatının aparılmasını təsdiqləyən sənəddir.

1.6. *“REPO-nun açılma tarixi*” – REPO Şəhadətnaməsinə uyğun olaraq Milli Bank tərəfindən qiymətli kağızların müvəkkil banka satıldığı gündür.

1.7. *“Əks-REPO-nun açılma tarixi”* – REPO Şəhadətnaməsinə uyğun olaraq müvəkkil bank tərəfindən qiymətli kağızların Milli Banka satıldığı gündür.

1.8. *“REPO-nun bağlanma tarixi”* – REPO Şəhadətnaməsinə uyğun olaraq Milli Bank tərəfindən qiymətli kağızların müvəkkil bankdan satın alındığı gündür.

1.9. *“Əks-REPO-nun bağlanma tarixi”* – REPO Şəhadətnaməsinə uyğun olaraq müvəkkil bank tərəfindən qiymətli kağızların Milli Bankdan satın alındığı gündür.

1.10. ***Çıxarılıb***

1.11. *“REPO-nun açılma qiyməti”* – REPO-nun açıldığı gün Milli Bankın qiymətli kağızların müvəkkil banklara satışı qiymətidir.

Repo/əks-Repo əməliyyatlarının açılma qiymətinin hesablama üsulu Milli Bank tərəfindən müəyyən edilir və bazar iştirakçılarının nəzərinə çatdırılır. Repo/əks-Repo-nun açılma qiymətinin hesablama üsulu dəyişdikdə Milli Bank bu barədə bazar iştirakçılarına müvafiq qərarın qüvvəyə minməsinə ən azı 2 iş günü qabaqcadan xəbərdar edir.

1.12. *“Əks-REPO-nun açılma qiyməti”* – əks-REPO-nun açıldığı gün müvəkkil banklar tərəfindən qiymətli kağızların Milli Banka satışı qiymətidir.

1.13. *“REPO-nun bağlanma qiyməti"* - REPO-nun bağlandığı gün Milli Bank tərəfindən qiymətli kağızları müvəkkil banklardan geri satın alma qiymətidir.

1.14. *“Əks-REPO-nun bağlanma qiyməti”* – əks-REPO-nun bağlandığı gün Milli Bankın qiymətli kağızları müvəkkil banklara satışı qiymətidir.

1.15. *"REPO/əks-REPO-nun bağlanma qiyməti”* –REPO/əks-REPO əməliyyatının 360 gün əsasında hesablanan və əməliyyatın faktiki fəaliyyət müddəti, REPO/əks-REPO-nun açılma qiyməti və illik faiz dərəcəsi nəzərə alınmaqla aşağıdakı düsturla hesablanır:

$$P_s = P_o *(1+ \frac{Q* t}{360})$$

*burada:*

Q - REPO-nun adi illik faiz dərəcəsidir;
Po - əməliyyatın açılma qiymətidir;
Ps - əməliyyatın bağlanma qiymətidir;
t – REPO-nun açılma və bağlanma tarixləri arasındakı dövr (günlə).

1.16. *“Fond birjası”* – Milli Bankla müqavilə əsasında REPO/əks-REPO əməliyyatlarının aparılmasını təşkil edən və qiymətli kağızlar bazarında fond birjası fəaliyyətini həyata keçirən ticarət təşkilatçısıdır.

1.17. “*Depozitar”* – qiymətli kağızların saxlanması və onlara hüquqların, habelə öhdəliklərlə yüklənməsi faktlarının uçotu və təsdiq edilməsi üzrə xidmətlər göstərən təşkilatdır.

1.18. “*Depo hesabı”* – depozitarda qiymətli kağızların uçotunun aparıldığı hesabdır.

1.19. "qiymətli kağızların *ödənilməsi"* – qiymətli kağızların Emitent tərəfindən dövriyyədən çıxarılması və sahiblərin hesablarına onlara məxsus qiymətli kağızların nominal dəyəri miqdarında pul vəsaitin köçürülməsidir.

## II. Ümumi müddəalar.

2.1. REPO/əks-REPO əməliyyatları pul siyasəti çərçivəsində qoyulmuş hədəflərə nail olmaq, qiymətli kağızlar bazarının və bank sisteminin likvidliyini tənzimləmək məqsədilə Milli Bank tərəfindən istifadə edilən vasitələrdən biridir.

2.2. REPO/əks-REPO əməliyyatları fond birjası vasitəsilə Milli Bankla razılaşdırılmış reqlamentə uyğun keçirilir.

2.3. REPO/əks-REPO əməliyyatları standart REPO Baş Sazişi (Əlavə 1) və REPO Şəhadətnaməsi əsasında həyata keçirilir.

2.4. REPO/əks-REPO əməliyyatlarının müddəti bir gün və daha çox ola bilər. Bu zaman REPO/əks-REPO-nun bağlanma tarixi qiymətli kağızların ödəniş tarixindən ən azı beş gün əvvəl olmalıdır. REPO/əks-REPO-nun bağlanma tarixi qeyri-iş gününə düşdüyü halda əqd növbəti ilk iş günü icra edilir.

2.5. Tərəflər REPO/əks-REPO əməliyyatı qüvvədə olduğu müddət ərzində onun şərtlərini dəyişdirmək və REPO/əks-REPO əməliyyatının obyekti olan qiymətli kağızlar üzərində sərəncam vermək hüququna malik deyillər.

2.6. Tərəflərdən biri REPO/əks-REPO-nun bağlanma tarixinə REPO Şəhadətnaməsinin şərtlərini yerinə yetirmədiyi təqdirdə REPO/əks-REPO əməliyyatı baş tutmamış hesab edilir. Alıcının REPO Şəhadətnaməsinə uyğun aldığı qiymətli kağızlar üzərində sərəncam vermək hüququnun məhdudlaşdırılmasına son qoyulur və qiymətli kağızlar hər-hansı bir şərt və mülkiyyət hüququ üzərində məhdudiyyət olmadan satıcıdan alıcıya keçir.

2.7. Tərəflərdən biri REPO Baş Sazişi və ya REPO Şəhadətnaməsinin şərtlərini yerinə yetirmədikdə və ya lazımi qaydada yerinə yetirmədikdə əks tərəf REPO/əks-REPO əməliyyatının aparılmasından imtina etmək hüququna malikdir.

2.8. ***Çıxarılıb***

2.9. ***Çıxarılıb***

## III. REPO/əks-REPO əməliyyatları üzrə faiz dərəcələrinin müəyyənləşdirilməsi.

3.1. Milli Bank apardığı REPO/əks-REPO əməliyyatları üzrə illik faiz dərəcələrini sərbəst şəkildə və ya bu məqsədlə keçirilən hərraclar (irəlidə - "hərrac") vasitəsilə müəyyən edir.

3.2. Hərraclar Milli Bankla REPO Baş Sazişini imzalayan müvəkkil banklar arasında keçirilir.

3.3. Milli Bank REPO/əks-REPO əməliyyatları üzrə hərraclaıın şərtləri və hərracların şərtlərində edilmiş əlavə və dəyişikliklər barədə məlumatı hərracların keçirilməsi tarixinə iki iş günü qalmış müvəkkil bankların nəzərinə çatdırır.

3.4. Milli Bank hərracların keçirilməsini qeyri-məhdud müddətə dayandırmaq və zəruri hallarda bərpa etmək hüququna malikdir.

## IV. Hərracların keçirilməsi qaydası.

4.1. Hərrac günü müvəkkil banklar sifariş qəbulu üçün elan olunmuş müddət ərzində REPO/əks-REPO əməliyyatlarının aparılması üzrə sifarişləri (irəlidə - "sifariş") Bakı Fond Birjasına təqdim etmək hüququna malikdirlər.

4.2. Sifarişlərin qəbul olunma vaxtı hərraclaıın keçirilməsi barədə məlumatda göstərilir.

4.3. Sifarişlər müvəkkil banklar tərəfindən Bakı Fond Birjasının Ticarət sisteminə daxil edilir.

4.4. Sifarişdə aşağıdakılar göstərilməlidir:

⇒ müvəkkil bankın adı;
⇒ əməliyyatın növü (REPO/əks-REPO);
⇒ qiymətli kağızların dövlət qeydiyyat nömrəsi;
⇒ alınan/satılan qiymətli kağızların sayı;
⇒ REPO/əks-REPO üzrə faiz dərəcəsi ( yüzdə bir dəqiqliyi ilə);
⇒ REPO/əks-REPO-nun bağlanma tarixi və s. zəruri məlumat.

4.5. Qəbul olunmuş sifarişlər Sifarişlərin Icmal Reyestrində ümumiləşdirilir (Əlavə 2) və qərarın qəbul edilməsi məqsədilə Milli Bankın səlahiyyətli şəxsinə təqdim olunur.

4.6. Sifariş göstərilən şərtlərlə Milli Banka REPO/əks-REPO əməliyyatının aparılması üçün müvəkkil bankın təklifi hesab olunur.

4.7. Hərraca təqdim olunmuş sifarişlər orada göstərilən faiz dərəcələri ilə Milli Bankın REPO/əks-REPO əməliyyatı üzrə müəyyən etmiş qiymət şərtlərinə uyğun gəldikdə icra edilir.

4.8. Milli Bank hərracın keçirildiyi gün hərracın nəticələrini müvəkkil bankların nəzərinə çatdırır.

4.9. Hərracın yekunları üzrə müvafiq hesablaşmalar aparıldıqdan sonra sifarişi icra olunmuş hərracın bütün iştirakçılarına REPO Şəhadətnaməsi təqdim olunur.

4.10. ***Çıxarılıb***

## V. Hərracdankənar REPO/əks-REPO əməliyyatlarının aparılması qaydası.

5.1. Milli Bank hərracdankənar REPO/əks-REPO əməliyyatlarını aparır.

5.2. Hərracdankənar REPO/əks-REPO əməliyyatları Milli Bank və müvəkkil banklar arasında aparılır.

5.3. Hərracdankənar REPO/əks-REPO əməliyyatları ticarət sessiyası zamanı aparılır.

5.4. Ticarət sessiyası zamanı REPO/əks-REPO əməliyyatları Milli Bank və müvəkkil banklar tərəfindən qarşılıqlı sifarişlərin verilməsi ilə aparılır.

5.5. Sifarişdə aşağıdakılar əks olunmalıdır:

⇒ sifarişi təqdim edənin adı;
⇒ əməliyyatın növü (REPO/əks-REPO);
⇒ qiymətli kağızların dövlət qeydiyyat nömrəsi;
⇒ qiymətli kağızların sayı;
⇒ REPO/əks-REPO-nun bağlanma tarixi.

5.6. Ticarət sessiyasının yekunları üzrə müvafiq hesablaşmalar aparıldıqdan sonra Ticarət sistemi bütün iştirakçılara əməliyyatın aparılmasını təsdiqləyən REPO Şəhadətnaməsini təqdim edir.

## VI. REPO/əks-REPO əməliyyatlarının depozitar uçotunun və hesablaşmaların aparılması qaydası.

II. 6.1. REPO/əks-REPO-nun açılma/bağlanma günü müvəkkil banklar REPO/əks-REPO əməliyyatı üzrə öhdəliyin icrası üçün lazımi qədər pul vəsaitinin və qiymətli kağızların olmasını təmin etməlidirlər.

6.2. REPO/əks-REPO əməliyyatları üzrə hesablaşmalar Ticarət sisteminin məlumatı və REPO Şəhadətnamələrinə uyğun aparılır. Hesablaşmalar Milli Bankın Hesablaşmalar departamenti tərəfindən həyata keçirilir.

6.3. REPO/əks-REPO bağlandıqda müvəkkil bank Milli Bank qarşısında pul vəsaiti üzrə öhdəliklərin icrası məqsədilə öz hesabından müvafiq məbləğin silinməsi üçün ödəmə tapşırığı Milli Bankın Hesablaşmalar departamentinə təqdim edir.

6.4. REPO/əks-REPO əməliyyatlarının uçotu məqsədilə Depozitarda Milli Bankın depo hesabında aşağıdakı bölmələr açılır:

⇒ REPO əməliyyatları üzrə qiymətli kağızların uçotu üçün “qiymətli kağızlarla REPO əməliyyatları üzrə tələblər”;

⇒ əks-REPO əməliyyatları üzrə qiymətli kağızların uçotu üçün “qiymətli kağızlarla əks-REPO əməliyyatları üzrə öhdəliklər”.

6.5. REPO açıldıqda qiymətli kağızlar Milli Bankın “depo” hesabının müvafiq bölməsinə köçürülüb bloklaşdırılır.

6.6. REPO/əks-REPO bağlandıqda Milli Bank REPO Şəhadətnamələrinə əsasən aşağıdakıları həyata keçirir:

⇒ “depo” hesabının “qiymətli kağızların REPO əməliyyatları üzrə tələblər” adlı bölməsində REPO əməliyyatı üzrə bloklaşdırılmış qiymətli kağızları sərbəstləşdirir;

⇒ "depo" hesabının “qiymətli kağızlarla əks-REPO əməliyyatları üzrə öhdəliklər” adlı bölməsində əks-REPO əməliyyatı üzrə bloklaşdırılmış qiymətli kağızları sərbəstləşdirir və müvəkkil bankın "depo" hesabına köçürür.

## VII. Yekun müddəalar.

6.1. Bu Qaydalar imzalandığı gündən qüvvəyə minir.

Dövlət qiymətli kağızları iləAzərbaycan Respublikası Milli Bankının REPO/əks-REPO əməliyyatlarının aparılması haqqında Qaydalarına Əlavə 1

# REPO BAŞ SAZİŞİ

"Azərbaycan Respublikasının Milli Bankı haqqında" Azərbaycan Respublikası Qanununu əsasında fəaliyyət göstərən Azərbaycan Respublikasının Milli Bankı (irəlidə- "Milli Bank"), ___________ (vəzifəsi) ___________________________ şəxsində bir tərəfdən və Nizamnamə əsasında fəaliyyət göstərən (irəlidə - "Bank") ______________________ bankı, İdarə Heyəti Sədri ___________________________ şəxsində, digər tərəfdən (irəlidə - "tərəflər") bu REPO Baş Sazişini (irəlidə - Saziş) bağladılar.

## 1.Ümumi müddəalar

Bu Sazişin məqsədləri üçün aşağıda sadalanan terminlər qeyd olunan məna daşıyırlar.

1.1 ***"REPO əməliyyatları"-*** Milli Bank tərəfindən qiymətli kağızların müvəkkil banka satışı (REPO-nun açılması) və eyni zamanda müvəkkil bank tərəfindən həmin qiymətli kağızları Milli Banka satmaq, Milli Bankın isə onları müvəkkil bankdan geri satın almaq öhdəliyini (REPO-nun bağlanması) rəsmiləşdirən maliyyə əməliyyatıdır.

1.2**"*Əks-REPO*** əməliyyatları***"* -** müvəkkil bank tərəfindən qiymətli kağızların Milli Banka satışı (REPO-nun açılması) və eyni zamanda Milli Bank tərəfindən həmin qiymətli kağızları müvəkkil banka satmaq, müvəkkil bankın isə onları Milli Bankdan geri satın almaq öhdəliyini (REPO-nun bağlanması) rəsmiləşdirən maliyyə əməliyyatıdır.

1.3.***"Müvəkkil bank"-*** Milli Bank ilə REPO baş Sazişini bağlayan bankdır.

1.4.***"REPO Baş Sazişi"*** - REPO/əks –REPO əməliyyatları aparılan zaman Milli Bank və müvəkkil bank arasındakı qarşılıqlı münasibətləri tənzimləyən və REPO/əks-REPO əməliyatlarınının aparılmasının əsas şərtlərini, tərəflərin hüquq, vəzifə və məsuliyyətini müəyyənləşdirən sazişdir.

1.5. ***"REPO şəhadətnaməsi"-*** Milli Bankla müvəkkil bank arasında hər bir ayrıca REPO/əks-REPO əməliyyatının aparılmasını təsdiqləyən sənəddir.

1.6. ***"REPO-nun açılma tarixi"-*** REPO Şəhadətnaməsinə uyğun olaraq Milli Bank tərəfindən qiymətli kağızların müvəkkil banka satıldığı gündür.

1.7. ***"Əks-REPO-nun açılma tarixi"*** - REPO Şəhadətnaməsinə uyğun olaraq müvəkkil bank tərəfindən qiymətli kağızların Milli Banka satıldığı gündür.

1.8. ***"REPO-nun bağlanma tarixi"*** - REPO Şəhadətnaməsinə uyğun olaraq Milli Bank tərəfindən qiymətli kağızların müvəkkil bankdan satın alındığı gündür.

1.9. ***"Əks-REPO-nun bağlanma tarixi"*** - REPO Şəhadətnaməsinə uyğun olaraq müvəkkil bank tərəfindən qiymətli kağızların Milli Bankdan satın alındığı gündür.

1.10. ***“REPO-nun açılma qiyməti”*** - Repo-nun açıldığı gün Milli Bankın qiymətli kağızları müvəkkil banklara satışı qiymətidir.

1.11. ***“Əks-REPO-nun açılma qiyməti”*** - əks-REPO-nun açıldığı gün müvəkkil banklar tərəfindən qiymətli kağızların Milli Banka satışı qiymətidir.

Repo/əks-Repo əməliyyatlarının açılma qiymətinin hesablanması üsulu Milli Bank tərəfindən müəyyən edilir və bazar iştirakçıların nəzərinə çatdırılır. Repo/əks-Repo-nun açılma qiymətinin hesablanması üsulu dəyişdikdə Milli Bank bu barədə bazar iştirakçılara müvafiq qərarın qüvvəyə minməsinə ən azı 2 iş günü qabaqcadan xəbərdar edir.

1.12. ***“REPO-nun bağlanma qiyməti”*** - REPO-nun bağlandığı gün Milli Bank tərəfindən qiymətli kağızları müvəkkil banklardan geri satın alma qiymətidir.

1.13. ***“Əks-REPO-nun bağlanma qiyməti”*** - əks-REPO-nun bağlandığı gün Milli Bankın qiymətli kağızları müvəkkil banklara satışı qiymətidir.

1.14. ***“REPO/əks-REPO-nun bağlanma qiyməti”*** – REPO/əks-REPO əməliyyatının 360 gün əsasında hesablanan və əməliyyatın faktiki fəaliyyət müddəti, REPO/əks-REPO-nun açılma qiyməti və illik faiz dərəcəsi nəzərə alınmaqla aşağıdakı düsturla hesablanır:

$$Ps = Po*(1+ \frac{Q*t}{360})$$

burada:

Q - REPO-nun adi illik faiz dərəcəsidir;

Po - əməliyyatın açılma qiymətidir;

Ps - əməliyyatın bağlanma qiymətidir;

t - REPO-nun açılma və bağlanma tarixləri arasındakı dövr (günlə).

1.16. ***“Fond birjası”*** – Milli Bankla müqavilə əsasında REPO/əks-REPO əməliyyatlarının aparılmasını təşkil edən və qiymətli kağızlar bazarında fond birjası fəaliyyətini həyata həyata keçirən təşkilatdır.

1.17. ***“Depozitar”*** – qiymətli kağızların saxlanması və onlara hüquqların, habelə öhdəliklərlə yüklənməsi faktlarının uçotu və təsdiq edilməsi üzrə xidmətlər göstərən təşkilatdır.

1.18. ***“Depo hesabı”***- depozitarda qiymətli kağızların uçotunun aparıldığı hesabdır.

1.19. ***“Qiymətli kağızların ödənilməsi”*** - qiymətli kağızların Emitent tərəfindən dövriyyədən çıxarılması və sahiblərin hesablarına onlara məxsus qiymətli kağızların nominal dəyəri miqdarında pul vəsaitin köçürülməsidir.

## 2. Sazişin predmeti

2.1.Tərəflər razılığa gəlmişlər ki, bu Sazişin qüvvədə olması müddətində onlar qiymətli kağızlarla REPO/əks-REPO əməliyyatları ( irəlidə- "REPO əməliyyatları") aparacaqlar. Bu əməliyyatlar zamanı bir tərəf (Satıcı) qiymətli kağızları REPO-nun açılış qiymətli ilə digər tərəfə (Alıcıya) satır və eyni zamanda REPO Şəhadətnaməsində nəzərdə tutulmuş müddətdə Satıcı pul vəsaitini Alıcının hesabına köçürülməsi yolu ilə həmin qiymətli kağızları REPO-nun bağlanma qiyməti ilə satın almağı öhdəsinə götürür.

2.2.Tərəflər qiymətli kağızlarla REPO əməliyyatlarını apararkən bu Sazişi, REPO Şəhadətnaməsini və qüvvədə olan qanunvericiliyi rəhbər tuturlar.

2.3.Bakı Fond Birjası - Milli Bankla müqavilə əsasında REPO əməliyyatları üzrə Fond Birjası vəzifələrini həyata keçirir.

2.4.Bakı Fond Birjası qiymətli kağızlarla depozitar əməliyyatları üzrə Depozitar vəzifələrini həyata keçirir.

2.5.Tərəflər REPO əməliyyatı qüvvədə olduğu müddət ərzində onun şərtlərini dəyişdirmək və REPO əməliyyatının obyekti olan qiymətli kağızlar üzərində sərəncam vermək hüququna malik deyillər.

2.6.REPO/əks-REPO əməliyyatları Fond Birjasında Milli Bankla razılaşdırılmış reqlamentə uyğun keçirilir.

## 3. Sazişin icrası

3.1.REPO əməliyyatı tərəflər arasında Saziş əsasında keçirilir və REPO Şəhadətnaməsi ilə rəsmiləşdirilir.

3.2.REPO əməliyyatlarırının müddəti bir gün və daha çox ola bilər. Bu zaman REPO-nun bağlanma tarixi qiymətli kağızların ödəniş tarixindən azı 5 gün qabaq olmalıdır. REPO əməliyyatının bağlanma tarixi qeyri-iş gününə düşdükdə əqd növbəti ilk iş günü icra edilir.

3.3.REPO açıldıqda qiymətli kağızlar Milli Bankın "depo" hesabının müvafiq bölməsində bloklaşdırılır.

3.4.REPO bağlandıqda Milli Bank REPO Şəhadətnaməsinə əsasən aşağıdakıları həyata keçirir:

"depo" hesabının "qiymətli kağızlarla REPO əməliyyatları üzrə tələblər" adlı bölməsində REPO əməliyyatı üzrə bloklaşdırılmış qiymətli kağızları sərbəstləşdirir;

"depo" hesabının "qiymətli kağızlarla əks-REPO əməliyyatları üzrə öhdəliklər" adlı bölməsində əks-REPO əməliyyatı üzrə bloklaşdırılmış qiymətli kağızları sərbəstləşdirir və Bankın " depo" hesabına köçürür.

3.5.Satıcı pul vəsaiti Alıcının hesabına REPO Şəhadətnaməsində müəyyən edilmiş müddət ərzində köçürmədiyi təqdirdə Alıcının REPO Şəhadətnaməsi üzrə alınmış qiymətli kağızlar üzərində sərəncam vermək hüququnun məhdudlaşdırılması dayandırılır.

3.6.REPO əməliyyatlarının aparılması zamanı Bank və onun xidmət göstərdiyi investorlar arasında yaranan münasibətlər Bankla investorlar arasında bağlanmış və Sazişin şərtlərinə zidd olmayan müvafiq müqavilə ilə tənzimlənir.

3.7.Bank Sazişin və ya REPO Şəhadətnaməsinin şərtlərini yerinə yetirmədikdə və ya lazımı qaydada yerinə yetirmədikdə Milli Bank REPO əməliyyatının aparılmasından imtina etmək hüququna malikdir.

## 4. REPO hərraclarının keçirilməsi qaydası

4.1. REPO əməliyyatları üzrə hərraclar Fond Birjasında keçirilir.

4.2. Milli Bank REPO əməliyyatları üzrə hərraclar barədə məlumat yayır.

4.3. Hərrac günü Bank sifariş qəbulu üçün elan olunmuş müddət ərzində REPO əməliyyatının aparılması üzrə sifarişlər (irəlidə - "sifariş") vermək hüququna malikdir.

4.4. Sifarişdə aşağıdakılar göstərilməlidir:

→ Bankın adı;

→ REPO əməliyyatının növü;

→ qiymətli kağızların dövlət qeydiyyat nömrəsi;

→ Alınan/satılan qiymətli kağızların sayı;

→ REPO əməliyyatı üzrə faiz dərəcəsi (yüzdə bir dəqiqliliyi ilə);

→ REPO-nun bağlanma tarixi və s. zəruri məlumat.

4.5. Sifariş göstərilən şərtlərlə Milli Banka REPO əməliyyatının aparılması üçün Bankın təklifi hesab olunur.

4.6. Hərraca təqdim olunmuş sifarişlər orada göstərilən faiz dərəcələri ilə Milli Bankın REPO əməliyyatı üzrə müəyyən edilmiş qiymət şərtlərinə uyğun gəldikdə icra edilir.

4.7. Milli Bank hərracın keçirildiyi gün hərracın nəticələrini Bankın nəzərinə çatdırır.

4.8. Hərracın yekunları üzrə müvafiq hesablaşmalar aparıldıqdan sonra sifarişi icra olunmuş hər Banka REPO Şəhadətnaməsi təqdim olunur.

4.9. Hərrac günü REPO əməliyyatı üzrə öhdəliyin icrası üçün kifayət qədər pul vəsaitinin və ya qiymətli kağızların olmasını təmin etməyən Bank REPO-nun bağlanma qiyməti ilə REPO əməliyyatın həcminin 5 faizi məbləğində cərimə ödəyir.

## 5. Hərracdankənar REPO əməliyyatların aparılması qaydası

5.1. Milli Bank hərracdankənar REPO/əks-REPO əməliyyatlarını aparır.

5.2. Hərracdankənar REPO/əks-REPO əməliyyatları ticarət sessiyası zamanı aparılır.

5.3. Ticarət sessiyası zamanı REPO/əks-REPO əməliyyatları Milli Bank və Bank tərəfindən qarşılıqlı sifarişlərin verilməsi ilə aparılır.

5.4. Bank öz adından və öz hesabına sifariş vermək hüququna malikdir.

5.5. Sifarişdə aşağıdakılar əks olunmalıdır:

→ Müvəkkil bankın adı;

→ REPO əməliyyatının növü;

→ qiymətli kağızların dövlət qeydiyyat nömrəsi;

→ qiymətli kağızların sayı;

→ REPO-nun bağlanma tarixi və s. zəruri məlumat.

5.6. Aparılmış REPO əməliyyatlarının yekunları üzrə müvafiq hesablaşmalar aparıldıqdan sonra Fond Birjası Banka REPO əməliyyatının aparılmasını təsdiqləyən REPO Şəhadətnaməsini təqdim edir.

## 6. Hesablaşmaların aparılması qaydası

6.1. REPO-nun açılma/bağlanma günü Bank REPO əməliyyatı üzrə öhdəliyin icrası üçün lazımı qədər pul vəsaitinin və qiymətli kağızların olmasını təmin etməlidir.

6.2. REPO əməliyyatları üzrə hesablaşmalar həmin gün REPO Şəhadətnamələrinə uyğun aparılır. Hesablaşmalar Milli Bankın Hesablaşmalar departamenti tərəfindən həyata keçirilir.

6.3. Hesablaşmalar Bankın hesabına müvafiq vəsaitin köçürülməsi/silinməsi vasitəsi ilə həyata keçirilir.

## 7. Tərəflərin məsuliyyəti

7.1. Bir tərəfin REPO Şəhadətnaməsi üzrə öz öhdəliklərini yerinə yetirməməsi həmin REPO Şəhadətnaməsi üzrə digər tərəfi öhdəlikləri yerinə yetirməkdən azad edir.

7.2. Öhdəliyi pozmuş tərəf digər tərəfin xeyrinə REPO-nun bağlanma qiyməti ilə REPO əməliyyatın həcminin 5 faizi məbləğində cərimə ödəyir.

7.3. REPO Baş Sazişi və ya REPO Şəhadətnaməsi üzrə Bank öz öhdəliklərini yerinə yetirmədikdə Milli Bank müəyyən olunmuş cəriməni Bankın Milli Bankda açılmış müxbir hesabından Bankın sərəncamı olmadan, mübahisəsiz qaydada silmək hüququna malikdir.

7.4. Tərəflərdən biri REPO-nun bağlanma tarixinə REPO Şəhadətnaməsinin şərtlərini yerinə yetirmədiyi təqdirdə REPO əməliyyatı baş tutmamış hesab edilir. Alıcının REPO Şəhadətnaməsinə uyğun aldığı qiymətli kağızlar üzərində sərəncam vermək hüququnun məhdudlaşdırılmasına son qoyulur və qiymətli kağızlar hər-hansı bir şərt və mülkiyyət hüququ üzərində məhdudiyyət olmadan Satıcıdan Alıcıya keçir.

## 8. Sazişin qüvvədə olma müddəti və şərtləri

8.1. Saziş terəflər onu imzaladığı gündən qüvvəyə minir.

8.2. Saziş imzalandığı gündən bir il müddətində qüvvəyə malikdir. Tərəflərdən biri digərini Sazişə xitam vermək niyyəti haqqında yazılı şəkildə xəbərdar etmədiyi təqdirdə o növbəti il üçün uzadılmış hesab olunur.

8.3. Bu Saziş tərəflərin əlavə sazişi əsasında dəyişdirilə və ya tamamlana bilər.

8.4. Saziş, tərəflərin hərəsinə bir nüsxə təqdim etmək şərti ilə iki həqiqi nüsxədə tərtib olunmuşdur.

## 9. Sazişin bağlanması və ləğv edilməsi

9.1. Saziş Milli Banka təqdim olunan ərizə əsasında bağlanılır.

9.2. Bu Saziş aşağıdakı qaydada ləğv edilir:

→ Sazişdən çıxma haqqında ərizə əsasında;

→ Bankın ləğv edilməsi ilə əlaqədar olaraq;

→ Bank Sazişin, REPO Şəhadətnaməsinin şərtlərini, qüvvədə olan qanunvericiliyi pozduqda.

9.3. Bank yenidən təşkil edildikdə Sazişin qüvvəsi onun varisinə şamil edilmir.

## 10. Mübahisələrin həlli

10.1. Bu Sazişin icrası zamanı fikir ayrılıqları meydana çıxdıqda tərəflər onların qaldırılması üçün bütün zəruri tədbirləri görməyi öhdələrinə götürürlər.

10.2. Tərəflərin qarşılıqlı razılığını əldə etmək mümkün olmadıqda mübahisələrə məhkəmədə qanunla müəyyən edilmiş qaydada baxılır.

## 11. Tərəflərin rekvizitləri

| **Azərbaycan Respublikası Milli Bankı** | **Müvəkkil bank** |
| --- | --- |
| R. Behbudov küç. 32 | |
| (Vəzifəsi) | |
| ______________ | _____________ |